# Azərbaycan İnvestisiya Holdinqinin Müşahidə Şurasının iclası olub

**Aprelin 23-də Azərbaycan Respublikasının Baş naziri, Azərbaycan İnvestisiya Holdinqinin (AİH) Müşahidə Şurasının sədri Əli Əsədovun sədrliyi ilə AİH-in Müşahidə Şurasının iclası keçirilib.**




AZƏRTAC xəbər verir ki, iclasda Holdinqin idarəetməsinə verilmiş portfel şirkətlərin 2023-cü ilin yekunları üzrə fəaliyyət hesabatı, əsas maliyyə nəticələri, o cümlədən ümumi gəlir və EBİTDA göstəriciləri, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) tərəfindən AİH və portfel şirkətlərinin korporativ idarəetməsinin qiymətləndirilməsi layihəsinin nəticələri, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin fəaliyyəti və strateji baxışı haqqında icmal hesabat, portfel şirkətlərin büdcə tərtibi, təsdiqi və nəzarəti qaydaları və digər cari məsələlər ətraflı müzakirə olunub.

İclasda Azərbaycan İnvestisiya Holdinqinin Baş icraçı direktoru Ruslan Əlixanovun və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyevin məruzələri dinlənilib.

İclasın yekununda AİH-in Müşahidə Şurasının üzvlərinin rəy və təklifləri nəzərə alınmaqla müzakirə olunan məsələlər barədə qərarlar qəbul olunub və Holdinqin İdarə Heyətinə müvafiq tapşırıqlar verilib.

Azərbaycan.- 2024.- 25 aprel, № 83.- S.15.